ADRA
AZƏRBAYCAN DÖVLƏT
REKLAM AGENTLİYİ

# 2019
# İllik Hesabat



*Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2017-ci ildə 1472 nömrəli Fərmanı ilə publik-hüquqi şəxs olaraq yaradılmışdır. Açıq məkanda reklam daşıyıcılarının yerləşdirilməsi, onlar üzərindəki reklamların hazırlanması və yayımlanması sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirir. Fəaliyyətinin əsasında reklam ekosisteminin inkişafı, sahibkar məmnuniyyəti, şəffaflıq, məsuliyyət və nəzakətlilik prinsipləri durur.*

## Məqsəd

Açıq məkanda reklam mühitini sağlamlaşdırmaq, inkişaf etdirmək, reklamın məzmunu və reklam daşıyıcıları üzrə hüquqi və texniki tələblərin qorunmasını təmin etmək

Reklam yayıcıları və sahibkarlara dəstək vermək, onları maarifləndirmək, reklam yayımı üzrə qanunsuz ödənişlərdən azad etmək, reklam daşıyıcılarının qeydiyyatı üçün vaxt sərfini azaltmaq

Xidmət keyfiyyətini yüksək tutmaq, sahibkar və vətəndaş məmnunluğunu təmin etmək, onlarla münasibətlərdə peşəkarlıq və səmimiyyət nümayiş etdirmək

## Missiya

Açıq məkanda sağlam və innovativ reklam mühitini təmin etmək

*Reklam - biznesin və cəmiyyətin inkişafı üçün əhəmiyyətli vasitə olaraq düzgün mövqelənmədiyi təqdirdə əks təsir yaradır. Məhz bu səbəbdən də açıq məkan reklamı iqtisadiyyatın dövlət tərəfindən tənzimlənən sahəsinə aid edilir. Dövlət başçısının apardığı islahatların davamı olaraq yaradılmış Agentlik, fəaliyyətini reklamın ölkə iqtisadiyyatına daha faydalı olmasına yönəldib. Bu məqsədlə, reklam mühitinin inkişafı üçün çeviklik və müasirlik nümayiş etdirmək mütləqdir. Reklam və idarəçilik sahəsində əldə etdiyim təcrübə, həmçinin bazarın tələbləri Agentlikdə qısa müddət ərzində peşəkar heyətin və strukturun formalaşmasına imkan verdi.*



*Bir müddət ölkə xaricində yaşadığım dövrdə Bakıya hər gəldiyimdə şəhərin sürətlə abadlaşdığını görmək məni fərəhləndirirdi. Tarixi şəhərin müasir həllərlə inkişafı reklam sahəsində də yeniliyə ehtiyac yaradırdı. Bu səbəbdən, Agentlik olaraq, ilk hədəflərimizdən biri də məhz açıq məkan reklam qurğularının şəhərin dəyişən estetik görünüşü ilə uzlaşdırılması oldu. Sahibkarlarla qarşılıqlı əməkdaşlıq nəticəsində bir çox yararsız və təhlükəsizlik tələblərinə cavab verməyən qurğular müasir, beynəlxalq standartlara cavab verən yeni nəsil qurğuları ilə əvəzləndi. Bazar iştirakçılarının bu istiqamətdə aktivliyi bizə daha çox stimul verdi. Yaxın gələcəkdə daha çox ərazinin müasir qurğulara keçidini təmin edəcəyik.*

*Publik hüquqi şəxs olaraq Agentlik üçün ictimai məmnunluq, tənzimləmə və nəzarət mexanizmlərinin effektiv işləməsi, əməkdaşların yüksək peşəkar bilik və bacarıqlarının nümayişi vacib əhəmiyyət kəsb edir. Bunları təmin etməklə açıq məkan reklam bazarının böyüməsinə və nəticə etibarilə ölkə iqtisadiyyatının inkişafına töhfə vermiş olacağıq.*

**Aydın İbadov**
**İdarə Heyətinin sədri**

# Təşkilati struktur

| Agentliyin Aparatı | Ərazi reklam idarələri | “İnnova” İnnovativ Reklamçılıq Şirkəti MMC | “ARTREKLAM” Reklamçılıq və Aydınlatma Şirkəti MMC |
| --- | --- | --- | --- |

Hesabat dövrü ərzində Agentliyin təşkilati strukturu aşağıdakı kimi yenilənmişdir:

- Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi üç üzvdən - İdarə Heyətinin sədri və müavinlərindən ibarət İdarə Heyəti yaradılmışdır.

- “Daxili audit haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş vəzifələrin Agentlik tərəfindən də icrası, həmçinin Agentliyin bütün struktur bölmələrində nəzarət tədbirlərinin eləcə də, icra intizamının möhkəmləndirilməsi və icraya nəzarət, xidməti araşdırmalar, daxili audit yoxlamaları və monitorinqlərin aparılması işinin təşkili və həyata keçirilməsi istiqamətində zəruri işlərin görülməsi məqsədilə Daxili nəzarət şöbəsi yaradılmışdır.

- Agentliyin ərazi reklam idarələrinin sayı 11-dən 8-dək azaldılmışdır. Gəncə Regional Reklam İdarəsi Tovuz Regional Reklam İdarəsinin ona birləşdirilməsi yolu ilə, Şirvan Regional Reklam İdarəsi Şamaxı Regional Reklam İdarəsinin ona birləşdirilməsi yolu ilə, Bərdə Regional Reklam İdarəsi Ağcabədi Regional Reklam İdarəsinin ona birləşdirilməsi yolu ilə yenidən təşkil edilmişdir.

- “Dövlətə məxsus hüquqi şəxslərdə apellyasiya şuralarının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 6 may 2019-cu il tarixli 681 nömrəli Fərmanının icrası olaraq, açıq məkanda reklam yayımı sahəsində sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılmada şəffaflığın, obyektivliyin və operativliyin təmin edilməsi, habelə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə Agentlikdə Apellyasiya Şurası yaradılmışdır.

# Agentliyin Aparatı

İdarə Heyətinin sədri

İdarə Heyəti sədrinin müavini

Aparatın rəhbəri

İdarə Heyəti sədrinin müavini

İcazə və razılaşdırma şöbəsi

Monitorinq və nəzarət şöbəsi

Daxili nəzarət şöbəsi

Hüquq şöbəsi

İnsan resursları və katiblik şöbəsi

Maliyyə şöbəsi

Təchizat və inzibati təsərrüfat şöbəsi

Strateji inkişaf şöbəsi

İctimaiyyətlə əlaqələr şöbəsi

İnformasiya texnologiyaları şöbəsi

# Ərazi reklam idarələri




FRANSA
İSTEHSALI
Yalnız sizin üçün
YOXLAYIN
VƏ SEVİN
7.80
ADRA

# Açıq məkan reklamlarına nəzarət

Hesabat dövrü ərzində ölkə üzrə açıq məkanda reklam yerləşdirilməsinə dair sahibkarlarla bağlanılmış icazə müqavilələri əsasında 57494 reklam daşıyıcısına icazə sənədləri verilmişdir.




İl ərzində açıq məkanda icazə sənədləri olmadan reklam yayımlayan obyektlərin (sahibkarlıq subyektlərinin) müəyyən olunması məqsədilə monitorinqlərin aparılması nəticəsində Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron inzibati rayonunda ümumilikdə 3800-ə yaxın obyektə baxış keçirilmiş, müvafiq icazə sənədləri olmadan açıq məkanda reklam yayımlayan 1835 obyekt aşkar edilmişdir. Eyni zamanda, estetik cəhətdən yararsız və ümumi görünüşə xələl gətirən reklamların, həmçinin müvafiq qanunvericilik aktları ilə qadağan olunmuş reklamların yayımının müəyyənləşdirilməsi və aradan qaldırılması məqsədilə əlavə monitorinqlər aparılmış və nəticədə 3518 halda estetik cəhətdən yararsız və ümumi görünüşə xələl gətirən, habelə 328 halda müvafiq qanunvericilik aktları ilə qadağan olunmuş reklamların açıq məkanda yayımlanması faktı aşkar edilmişdir.


XIRDALAN
XIRDALAN BEER
NZS
EFES
Mega Kampaniya
0.50
Ətir
Hər 5qr alana 2qr
Hədiyyə
5 man Saatlar 5 man
KSEROKS
ALMAN TƏKƏRLƏRİNİN SATIŞI
Kişi Salonu
Patiskha
30% ENDİRİM
optika
APTEK
faberlic
FOTO
KSEROKOPİYA
HISS BUTIK
İç qadın geyimləri
SORUŞMA AL
1 manat
TƏCİLİ FOTO
Ərzaq
24 SAAT
KİTAB
Hədiyyə qutuları
555 MARKET
MARKET 555
um_28 KİTAB
AKSES

Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə əlaqədar olaraq açıq məkanda reklamların yayımında dövlət dili ilə bağlı müvafiq qanunvericilik aktlarının tələblərinə əməl olunması sahəsində monitorinqlər həyata keçirilmiş, 17083 obyektə baxış keçirilmiş, əcnəbi dillərdə reklam yayımlayan və reklamlarında ədəbi dilin normalarının pozulması ehtimal olunan 6350 obyektin reklamlarının müvafiq qanunvericiliyin tələblərinə uyğunluğu yoxlanılmış, nəticədə "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 4.7-ci bəndinin tələblərini pozmaqla açıq məkanda reklam yayımlayan 6028 obyekt aşkarlanmışdır.

Təhlükəsizlik və estetik tələblərə cavab verməyən reklam daşıyıcılarının əksər hissəsinin yeniləri ilə əvəz edilməsi istiqamətində zəruri tədbirlər görülmüş, ölkə üzrə icazə sənədləri olmayan və yararsız 6125 ədəd reklamın açıq məkanda yayımının dayandırılması təmin edilmişdir.




Açıq məkanda reklam haqqında qanunvericiliyin pozulmasına yol vermiş şəxslər Agentlik tərəfindən reklam sahəsində mövcud qanunvericiliyin tələbləri barədə məlumatlandırılmış, həmçinin onlara yazılı bildiriş və xəbərdarlıqlar təqdim edilmişdir. Lakin, aparılan maarifləndirmə tədbirlərinə baxmayaraq qanunvericiliyin tələblərini pozmaqda davam edən reklam yayıcıları barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati xəta haqqında 584 protokol tərtib edilərək, baxılmaq üçün aidiyyəti məhkəmələrə göndərilmişdir. Bununla əlaqədar, keçirilmiş məhkəmə proseslərində Agentliyin nümayəndələrinin iştirakı təmin edilmişdir.

Vətəndaşlardan, dövlət və yerli özünüidarəetmə orqanlarından Agentliyin Aparatına daxil olmuş 1797 yazılı müraciət və sorğuya vaxtında baxılaraq, qanunauyğun şəkildə cavablandırılması təmin edilmişdir. Həmçinin, 1412 Çağrı Mərkəzinə il ərzində 1847 müraciət daxil olmuşdur. Müraciətlərin 80%-i məlumat xarakterli olmuşdur ki, onların da əsas hissəsini (bütün zənglərin 43%-i) açıq məkanda reklam yayımına görə dövlət rüsumu və yayım haqqı məbləğinin hesablanması ilə əlaqədar müraciətlər təşkil etmişdir.

Xidmətin keyfiyyətini analiz eetdikdə iş günlərində daxil olan zənglərin 30 saniyə ərzində cavablandırılmaya qəbulu faizi 92%, daxil olan zənglərin ümumilikdə cavablandırılmaya qəbulu faizi 96%-dir. Sorğu və məlumat xarakterli müraciətlərdə cavablandırma maksimumu 4 gün, şikayət xarakterli müraciətlərdə isə cavablandırma maksimumu 11 gün olmuşdur.

Çağrı Mərkəzinə daxil olan müraciətlərin 76%-i Bakı ŞRİ, 5%-i Lənkəran RRİ, 5%-i Sumqayıt RRİ, 4%-i Gəncə RRİ, 4%-i Bərdə RRİ, 3%-i Şəki RRİ, 2%-i Şirvan RRİ və 1%-i Quba RRİ xidmət ərazilərdən daxil olmuşdur.



Telefon vasitəsilə daxil olan sorğu və müraciətlərə daha operativ və səmərəli cavab verilməsi məqsədilə sentyabr ayından etibarən Çağrı Mərkəzi fəaliyyətinə *WhatsApp* xidməti (+994776771412) əlavə olunub.

# İctimai fəaliyyət

Hesabat dövrü ərzində Agentliyin rəsmi internet səhifəsində (*adra.gov.az*) ümumi fəaliyyət, görülən işlər və yeniliklər barədə xəbərlər, videogörüntülər və fotoların yerləşdirilməsi işi davam etdirilmiş, rəsmi saytda 51 xəbər yayımlanmışdır. Agentliyin *Facebook*, *Instagram* və *Twitter* sosial şəbəkələrdəki ünvanlarında gündəlik paylaşımlar həyata keçirilmiş, sosial şəbəkə istifadəçilərinə Agentlik barədə məlumatların, həmçinin sosial və ictimai xarakterli paylaşımların operativ təqdim olunması təmin edilmişdir. İl ərzində Agentliyin sosial şəbəkələrindəki rəsmi ünvanlarına 348 sayda paylaşım yerləşdirilmiş, sosial şəbəkə istifadəçiləri tərəfindən ünvanlanan müxtəlif xarakterli suallar cavablandırılmışdır. İl ərzində Agentlik barədə 917 kütləvi informasiya vasitəsində 147 xəbər yayımlanmışdır.

Agentlik daxilində “20 Yanvar” və “Xocalı” faciələrinin ildönümləri qeyd olunmuş, 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə kollektiv Azərbaycan Uşaqlar Birliyi, Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinin azyaşlı sakinləri ilə də görüşmüş, Novruz bayramı ərəfəsində “Dost xonçası” kampaniyasına, “Xəzəri qoruyaq” təmizlik aksiyasına Agentliyin də qoşulması təşkil olunmuş, 1 oktyabr - “Ahıllar günü” münasibətilə Bilgəh qəsəbəsində yerləşən Müharibə və əmək əlilləri üçün pansionat sakinləri ziyarət edilmiş, Respublika Talassemiya Mərkəzinin Agentlikdə təşkil etdiyi “Donor Günü” könüllü qanvermə aksiyasına Agentliyin onlarla əməkdaşı qoşulmuş, Nəsiminin 650 illik yubileyi münasibətilə ölkədə genişmiqyaslı ağacəkmə aksiyasına Agentliyin əməkdaşları da qoşulmuşdur.



1 iyun tədbiri


“Xəzəri qoruyaq” aksiyasında

2019-cu ilin dekabr ayının sonlarında isə Agentlik ənənəvi "Zima-2019" Beynəlxalq Uşaq Festivalının təşkilində tərəfdaş kimi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mükafatına layiq görülmüşdür. Sentyabrın 26-da Bakı Konqres Mərkəzində 30 iyun - 10 iyul tarixlərində ölkəmizdə təşkil edilmiş *UNESCO*-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının yekunlarına həsr olunmuş tədbirdə Agentliyin İdarə Heyətinin sədri Aydın İbadova mükafat təqdim etmişdir.

Aprelin 6-da ölkənin 10 milyonuncu sakini doğulmuşdur. Bu əlamətdar hadisə ilə əlaqədar ADRA tərəfindən bir həftə ərzində Bakı şəhərində 25 monitorda müxtəlif tərtibatlarda təbrik mesajları yayımlanmışdır. Digər dövlət və ictimai tədbirlərə də reklam dəstəyi verilmişdir.

Agentliyin iki illik fəaliyyəti münasibətilə iyunun 20-də Agentliyin nümayəndələri sahibkarlarla görüşərək onlara xoş arzularını çatdırıb, xüsusi hədiyyələr təqdim ediblər. Ünsiyyət zamanı sahibkarlar son 2 ildə açıq məkandakı reklam sahəsində yaradılan əlverişli mühitdən, onların işini asanlaşdırmaq və genişləndirmək məqsədilə aparılan tədbirlərin müsbət nəticələrindən danışıblar.



Nəsiminin 650 illik yubileyi münasibətilə genişmiqyaslı ağacəkmə aksiyasında

# Kadr potensialının inkişafı

Hesabat dövrü ərzində Agentlikdə 492 nəfər işçi çalışmışdır. İşçi sayı 2018-ci il ilə müqayisədə 65% artmışdır. Fevralda Tovuz, Şamaxı, Ağcabədi RRİ-lər ləğv olunsa da onlara aid ştat sayı saxlanılmışdır.

Aparat üzrə 8 nəfər, Bakı ŞRİ üzrə 34, Sumqayıt RRİ üzrə 11, Gəncə RRİ üzrə 21, Lənkəran RRİ üzrə 6, Bərdə RRİ üzrə 18, Şəki RRİ üzrə 10, Quba RRİ üzrə 1, Şirvan RRİ üzrə 17, "İnnova" MMC üzrə 10, "ARTREKLAM" MMC üzrə 26 nəfər işə qəbul edilmişdir.

Agentliyin işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi ilə yanaşı motivasiya tədbirləri tətbiq edilmişdir. Mart ayında Aparat və Bakı ŞRİ-də tibbi sığorta proqramına başlanılmışdır. Digər ərazi idarələrində tibbi sığortalanma, onların dayanıqlı mənfəətinə görə müəyyən olunmuşdur.

Aparat şöbələrinin tələblərinə uyğun olaraq müxtəlif mövzularda təlim və seminarlar təşkil olunmuşdur. Maliyyə şöbəsi üçün *VBA* və *F3* təlimi, İcazə və Monitorinq şöbələri üçün *Kommunikativ bacarıqlar* təlimi, Strateji inkişaf şöbəsi üçün *Power BI* və *Data Analytics* təlimi, İnsan resursları şöbəsi üçün *Təşkilatın uğur formulu* təlimi, İctimaiyyətlə əlaqələr şöbəsi üçün *İctimaiyyətlə əlaqələr sahəsinin təkmilləşdirilməsi* təlimi, İnformasiya texnologiyaları şöbəsi üçün *CCNA Routing and Switching*, *MCSA*, *VCA*, *VCP* təlimləri təşkil olunmuşdur.

Agentliyin elan etdiyi *Təcrübə Proqramı* vasitəsilə 40 gənc fəaliyyətə cəlb olunmuş və onlardan 11-i il ərzində Aparatın İnformasiya texnologiyaları şöbəsində, 19-ı Bakı ŞRİ-də, 2-i isə Sumqayıt RRİ-də uzunmüddətli işlə təmin edilmişlər.



*Aparatın əməkdaşları MS Exel təlimində iştirakdan sonra*

# İnnovasiyalar

Agentliyin sifarişi əsasında yerli şirkət tərəfindən *Areameter* - məsafədən ölçmə cihazı və tətbiqi hazırlanıb istifadəyə verilib. Nəticədə, müfəttişlər ölçmə ilə bağlı vaxt itkisindən və hündürlüklə bağlı risklərdən azad olublar. Hərəkətli reklam qurğularının mərkəzləşdirilmiş monitorinq və idarəetmə sistemi də qurulmuşdur. Sistem iki əsas hissədən ibarətdir - daşıyıcılara quraşdırılan kontroller plataları və məsafədən idarəetməni təmin edən *web-interface*.

Bakıdakı reklam qurğularının və reklam yayımlayan obyektlətin qeydiyyata alınması *Trimble MX7* cihazı ilə aparılan *360° panorama* çəkilişləri vasitəsilə həyata keçirilib. Təsbit edilən hər bir obyekt rəqəmsal xəritəyə inteqrasiya olunub, reklam daşıyıcıların ölçüləri, növü, zonası, dövlət rüsumu və yayım haqqı hesablanıb.

İşə qəbul və vəzifə yüksəlişi ilə bağlı müraciət etmiş namizədlər üçün elektron qaydada test imtahanının tətbiq edilməsi proqramı hazırlanıb. İnsan resurslarının idarə olunması üzrə proqram təminatı istifadəyə verilib. Müfəttişlərin fəaliyyəti və icazələr sisteminin analitikası elektronlaşdırılıb. 2019-cu ilin ilk yarısında Aparata, Bakı ŞRİ-ə, Gəncə RRİ-ə ayrıca internet xətti çəkilib və bu idarələr vahid icazələr portalına qoşulub.

Reklam yayıcılarının ödəniş rahatlığı məqsədilə Agentliyin icazə sistemi *AsanPay*, *MilliÖn*, *Hesab.az*, *e-Pul* platformaları ilə inteqrasiya olunub. Xidmət yalnız Agentliyin Aparatı, Bakı ŞRİ və Gəncə RRİ-nin qeydiyyatında olan sahibkarlar üçün mümkün olub. Digər idarələrin ödəniş portallarına qoşulması Agentliyin icazə sisteminin tamamilə *E-Hökümət Portalı* ilə inteqrasiyasından sonra mümkün olması nəzərdə tutulurdu. İcazələr sistemi reklam yayıcısına *online* şəxsi kabineti vasitəsilə etdiyi müraciətdə reklam daşıyıcısının növünü, ölçüsünü, yayım zonasını göstərmək, reklam eskizini müraciətə əlavə etmək imkanı verir. Nəticədə həm reklam yayıcıları, həm də Agentlik daha az resurs xərcləməklə açıq məkan reklamlarının rəsmiləşdirilməsini daha effektiv təmin etməsi nəzərdə tutulur.


*Reklamların ölçüsünün məsafədən müəyyən olunması*




*Reklamların elektron qeydiyyatı platforması*



# İnfrastrukturun təkmilləşdirilməsi

Hesabat dövrü ərzində Bakı şəhəri üzrə istismar müddəti bitmiş və estetik baxımdan yararsız 62 ayrıca dayaqlı qurğunun dəyişdirilməsi nəticəsində şəhərdəki reklam infrastrukturunun bir hissəsi yenilənmiş, şəhərin estetik görüntüsü yaxşılaşdırılmış və yeni innovativ qurğuların Azərbaycan reklam bazarına tətbiqi həyata keçirilmişdir. “ARTREKLAM” MMC tərəfindən 62 ədəd müasir reklam qurğusu (böyük *LED* monitor və böyük *roller*) istehsal edilərək quraşdırılmışdır.

Hesabat dövrü ərzində qanunsuz və estetik görünüşcə yararsız olan reklam daşıyıcıları, həmçinin “Dövlət dili haqqında” Qanunun tələblərini pozan reklamlar üzrə də aktiv işlər aparılıb. Bakı ŞRİ ərazisində “ARTREKLAM” MMC tərəfindən 3800 reklam daşıyıcısı demontaj olunub. Eyni addımlar digər RRİ-lər tərəfindən də tətbiq edilib və nəticədə ölkə üzrə 5700 daşıyıcı demontaj edilib.

Müfəttişlərin fəaliyyətinin optimallaşdırılması məqsədilə Aparat, Bakı ŞRİ, Sumqayıt RRİ, Gəncə RRİ, Bərdə RRİ, Şirvan RRİ, Lənkəran RRİ, Şəki RRİ, Quba RRİ-nin istifadəsinə ümumilikdə 44 sayda *Fiat* markalı avtomobillər verilmiş və bununla da Agentliyin istifadəsində olan avtomobil sayı 85-ə çatmışdır. Bakı ŞRİ və Quba RRİ yeni ofislərə köçüblər.



*“ARTREKLAM” istehsal ərazisi*



*Bakı ŞRİ-nin yeni ofisi*




ADRA
AZƏRBAYCAN DÖVLƏT
REKLAM AGENTLIYI




*“ARTREKLAM” MMC-nin istehsal etdiyi yeni nəsil reklam qurğusu*




“ARTREKLAM” MMC-nin istehsal etdiyi yeni nəsil reklam qurğusu

# Beynəlxalq əməkdaşlıq

Hesabat dövründə Agentliyin rəhbərliyi və əməkdaşları tərəfindən beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiq edilməsi məqsədilə müxtəlif ölkələrə ezamiyyələr təşkil olunub:

- 27 fevral-2 mart tarixlərində İstanbul şəhərinə edilmiş səfər çərçivəsində *İstanbul Büyükşehir Belediyesi*ndə *Reklam Yönetim Müdirliği* və *Kentsel Tasarım Müdirliği* ilə əməkdaşlıq qurulmuş, bununla yanaşı reklam sahəsində nüfuzlu təşkilatlardan hesab olunan *Açıkhava Reklamcıları Vakfı (ARVAK)* və *Açıkhava Reklamcıları Derneği (ARED)* ilə ikitərəfli görüşlər keçirilmişdir;

- 3-6 mart Çinin Quanjou şəhərində keçirilən *International Signs and LED* sərgisində;

- 24-26 aprel ABŞ-ın Las Veqas şəhərində keçirilmiş *ISA International Sign Expo* beynəlxalq sərgisində;

- 17 iyul-9 avqust Çinin paytaxtı Pekin şəhərində təşkil olunmuş "İnkişaf etməkdə olan ölkələr üçün biznes investisiyası və risklərin idarə olunması" (*Business İnvestment and Risk Management for Developing Countries*) mövzusunda seminarda;

- 21-24 oktyabr Moskva şəhərində sayca 27-ci beynəlxalq Reklam sərgisində (Реклама Экспо);

- 26-27 noyabr Moskva şəhərində təşkil olunmuş sayca 4-cü Milli Reklam Forumunda (Национальный Рекламный Форум). Səfər çərçivəsində həmçinin Moskva şəhər KİV və reklam departamentinin rəhbərliyi və Rusiya Antiinhisar Xidmətinin rəhbərinin müavini ilə görüşlər keçirilmişdir;

- 5-8 dekabr İstanbul şəhərində reklam və çap sənayesinin region üzrə aparıcı tədbirlərindən biri hesab olunan *FESPA Avrasiya* sərgisində iştirak təmin olunmuşdur. Səfər çərçivəsində həmçinin İstanbulda innovativ reklam qurğularının istehsal və ixracını həyata keçirən *Traco Light*, *SMT Turkey* və *LEDECA* şirkətləri ilə əməkdaşlıq qurulmuş və istehsal prosesi ilə yaxından tanış olunmuşdur.

Agentliyin rəhbərliyi ilə Çinin *Shenzhen GCL Electronics CO LTD* şirkətinin baş menecerinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında 11 sentyabr tarixində Agentliyin Aparatında görüş keçirilmiş, rəqəmsal reklam qurğularının Azərbaycanda istehsal sahəsinin yaradılması ilə bağlı ilkin razılıq əldə edilmişdir. Bu məqsədlə şirkət ölkəmizə ilkin mərhələdə 3 milyon dollar dəyərində investisiya yatırımını nəzərdə tutduğunu bildirib. Bu olara, ölkəmizdə müvafiq istehsal sahəsinin yaradılması, yeni iş yerlərinin açılması və ixrac potensialının artırılmasına imkan yaradacaqdır.

*GCL* dünya üzrə 10000-dən çox *LED* ekran və işıqlandırma ilə əlaqədar layihələr həyata keçirib. Bu layihələr arasında 2010 ilində Cənubi Afrikada keçirilən Futbol üzrə Dünya Çempionatı, 2010 Şanxay *Expo*, 2014 Çin-Asean *Expo*, 2015 Milan *Expo* də var. Şirkət beynəlxalq *ISO 9001*, *ISO 1400* və *ISO18001* sertifikatlarına və *LED* məhsulları ilə əlaqəli bir çox patentlərə sahibdir. *CCC*, *FCC*, *CE*, *ROHS*, *UL*, *EMC* və *ETL* də daxil olmaqla bir çox standartları tətbiq edir.





adra.gov.az

info@adra.gov.az

Neftçilər prospekti 24
Dalğa Plaza

1412

+994776771412

